

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır


# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 41 (23.203)

*27 fevral 2019-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar fevralın 26-da Bakıda ümumxalq yürüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yürüşdə iştirak ediblər.

Ön sırada Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın olduqları ümumxalq yürüşünün iştirakçıları qanlı qırğının günahsız qurbanlarının – xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretlərini, 27 il əvvəl törədilmiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkilləri, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, bu soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək barədə çağırışlar və soyqırımı qurbanlarının adlarının, soyadlarının əks olunduğu Azərbaycan, rus, ingilis dillərində plakatlar və transparantlar tutmuşdular.

Xocalı soyqırımı qurbanlarının abidəsinin ətrafında fəxri qarovul dəstəsi və tər çiçəklər düzülüb.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoyub, faciə qurbanlarının xatirəsini ehtiramla yad edib.

Ümumxalq yürüşündə Rusiyadan gələn nümayəndə heyəti də iştirak edib.

## Naxçıvanda Xocalı soyqırımının 27-ci ildönümü ehtiramla yad edilmişdir





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında" 2019-cu il 5 fevral tarixli Sərəncamına əsasən ölkəmizin hər yerində Xocalı soyqırımının iyirmi yeddinci ildönümü qeyd olunur.

Fevralın 26-da Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə kompleksində Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov soyqırımı abidəsinin önünə gül qoymuş, Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etmişdir.

Nazirlik, komitə, idarə, müəssisə və təşkilatların rəhbərləri, hərbi hissələrin komandirləri, ictimaiyyətin nümayəndələri də erməni vəhşiliklərinin qurbanı olmuş soydaşlarımızın xatirəsini yad etmiş, soyqırımı abidəsinin önünə gül qoymuşlar.

Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur.

Tədbirin aparıcıları qeyd etmişlər ki, erməni millətçilərinin Azərbaycanın Xocalı şəhərində törətdikləri soyqırımın iyirmi yeddinci ildönümü tamam olur. "Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 5 fevral tarixli Sərəncamında qeyd olunur ki, ***"Xocalı soyqırımını törətməklə Ermənistan Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirmiş, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal etmişdir. Bunun nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır. Dünya tarixinin ən qanlı faciələrindən biri sayılan Xocalı soyqırımı XX əsrdə erməni şovinizminin mahiyyətini aşkara çıxaran təkzibolunmaz tarixi gerçəklikdir".***

Xocalı soyqırımı 200 il ərzində erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları soyqırımı siyasətinin davamı, erməni qəddarlığının daha bir təzahürüdür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri, Dağlıq Qarabağda yerləşdirilmiş erməni terrorçu dəstələri, keçmiş Sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının zirehli texnikası və hərbçiləri 7 min nəfərin yaşadığı Xocalı şəhərinə basqın etmiş, dinc sakinləri xüsusi amansızlıqla qətlə yetirmişlər. Həmin gün qadağan olunmuş mərmilərdən və kimyəvi silahlardan istifadə edilmiş, ağbirçək analara, ağsaqqallara, südəmər körpələrə aman verilməmişdir. Dinc əhaliyə qarşı həyata keçirilən bu soyqırım təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı yönəlmiş ən ağır cinayətdir. Bir gündə 106-sı qadın, 63-ü uşaq, 70-i ahıl insanlar olmaqla, 613 Xocalı sakini işgəncə ilə öldürüldü. Xocalı soyqırımında 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmiş, 487 nəfər əlil olmuşdur. 8 ailə tamamilə məhv edilmiş, 1275 nəfər əsir götürülmüşdür. Soyqırım törətməkdə erməni şovinistlərinin məqsədi xalqımızın mübarizə əzmini qırmaq idi. Lakin düşmən öz məkrli niyyətinə çata bilmədi. Xocalının qəhrəman müdafiəçiləri düşmən qarşısında əyilmədi, onlar qeyri-bərabər döyüşdə igidliklə vuruşaraq əsl qəhrəmanlıq və vətənpərvərlik nümunəsi göstərdilər.

Xocalı soyqırımına ilk hüquqi-siyasi qiyməti ümummilli liderimiz Heydər Əliyev vermiş, hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə xüsusi bəyanat verərək Xocalı soyqırımını törədənləri ittiham etmişdir. Ümummilli liderimizin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına dövlət səviyyəsində hüquqi-siyasi qiymət verilmişdir. 1994-cü il fevralın 24-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə hər il fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan olunmuşdur. Ümummilli lider Heydər Əliyev Xocalı soyqırımı barədə demişdir: ***"Bu faciə xalqımızın, vətəndaşlarımızın öz Vətəninə, torpağına, millətinə sadiqliyinin nümunəsidir. Xocalıda şəhid olanlar, həlak olanlar Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mübarizədə, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə şəhid olublar, özlərini qurban veriblər. Onların şəhidliyi gələcək nəsillərimiz üçün qəhrəmanlıq nümunəsi olacaq və onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır".***

Hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, Xocalı soyqırımının tanınması istiqamətində ardıcıl iş aparılır. Son illər Xocalı həqiqətlərinin dünyada tanıdılması, erməni millətçiliyinin beynəlxalq miqyasda ifşası sahəsində məqsədyönlü və sistemli tədbirlər görülür. Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində soydaşlarımızı təmsil edən çoxsaylı vətəndaş cəmiyyəti institutları, gənclər təşkilatları və diaspor qurumları bu sahədə birgə səmərəli fəaliyyət göstərirlər. Soyqırımın tanıdılması sahəsində aparılan fəaliyyət nəticəsində dünya ölkələri erməni qəsbkarlarının törətdiyi insanlığa sığmayan Xocalı soyqırımı haqqında daha dolğun məlumatlandırılır. Xocalı qurbanlarının əziz xatirəsi anılır, ermənilərin vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər, sənədli materiallar nümayiş etdirilir. Xocalı həqiqətlərinin tanıdılması istiqamətində aparılan işin nəticəsidir ki, bu gün Xocalı harayı dünyanın hər yerindən eşidilir. Bu soyqırımı beynəlxalq ictimaiyyət hiddətlə qarşılayır, dünyanın hər yerində Xocalı soyqırımına etiraz edənlərin sayı ildən-ilə artır. Artıq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur və dünya ictimai fikri Xocalı həqiqətlərini qəbul etməyə başlayır. Bir sıra dövlətlər, beynəlxalq təşkilatlar, eyni zamanda nüfuzlu qurumlar bəşəriyyətə qarşı yönəldilmiş bu cinayətin əsl mahiyyətini başa düşərək qətliamı kəskin şəkildə pisləyirlər. 2010-cu ildə 57 ölkənin üzv olduğu İslam Əməkdaşlıq Təşkilatı parlamentinin qəbul etdiyi qətnamədə Xocalı faciəsi "Erməni silahlı qüvvələri tərəfindən dinc əhaliyə qarşı kütləvi soyqırımı"



*Ardı 2-ci səhifədə*

və "İnsanlığa qarşı cinayət" kimi qiymətləndirilmişdir. Dünyanın 13 ölkəsi, eləcə də Amerika Birləşmiş Ştatlarının 22 ştatı Xocalı soyqırımını rəsmən tanımışdır. Xocalı soyqırımının tanınması haqqın, ədalətin təntənəsidir.

Xocalı soyqırımının təşkilatçıları və icraçıları layiqli cəzalarını almalı, insanlıq əleyhinə törədilmiş bu cinayət cəzasız qalmamalıdır. Heç kim unutmamalıdır ki, fevralın 26-sı təkcə Azərbaycan xalqının faciə tarixi deyil, eyni zamanda ölkəmizin ərazi bütövlüyünün bərpası və erməni işğalına son qoyulması uğrunda mübarizə tariximizin də şanlı səhifəsidir. Bu gün hər birimiz Azərbaycan Ordusunun gücü, qüdrəti ilə fəxr edir, qürur hissi keçiririk.

2016-cı ilin aprel döyüşlərində, 2018-ci ilin Günnüt əməliyyatında xalq-ordu birliyinin sarsılmaz vəhdəti düşməndə qorxu yaradıb. Xalqımız qəti əmindir ki, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti artan Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcəkdir. Düşmən bilməlidir ki, Ali Baş Komandanımızın hücum əmrini gözləyən qüdrətli ordumuz şəhidlərimizin qisasını alacaq, üçrəngli bayrağımız Şuşada, Xankəndidə dalğalanacaqdır.

Fevralın 26-da muxtar respublikanın rayonlarında da Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanın Bakıdakı Daimi Nümayəndəliyində Xocalı soyqırımı ilə bağlı anım tədbiri olub

*Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Tədbirdə əvvəlcə Xocalı faciəsi qurbanlarının və bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov çıxış edərək erməni millətçilərinin Azərbaycan torpaqları üzərində "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək üçün azərbaycanlılara qarşı dəfələrlə həyata keçirdikləri terror aktlarından, kütləvi qırğınlardan bəhs edib. Bildirilib ki, mənfur ermənilər 1992-ci il fevralın 25-dən 26-na keçən gecə qədim oğuz-türk yurdu olan Xocalı şəhərində törətdikləri soyqırımla vəhşi, xəyanətkar, qəddar millət olduqlarını dünyaya bir daha nümayiş etdiriblər.

Hər il Xocalı soyqırımının ildönümünün qeyd olunması bir daha sübut edir ki, həmin qanlı gecədə erməni təcavüzkarlarının törətdikləri vəhşilik və cinayətin dəhşətləri yaddaşlardan heç zaman silinməyəcək. Çünki Xocalıda baş verənlər təkcə Azərbaycan xalqına qarşı deyil, bəşəriyyət əleyhinə törədilmiş qanlı cinayətdir. Dünya dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar, beynəlxalq ictimaiyyət bu acı həqiqəti bilməli, insanlığa qarşı törədilən bu cinayətə hüquqi qiymət verilməli, təcavüzkar cəzalandırılmalıdır.




Bəxtiyar Əsgərov vurğulayıb ki, bu qanlı faciəyə ilk dəfə olaraq Azərbaycan xalqının xilaskarı, ümummilli lider Heydər Əliyevin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra siyasi-hüquqi qiymət verilib. Məhz ulu öndərin təşəbbüsü ilə 1994-cü ildə 26 fevral tarixi "Xocalı Soyqırımı Günü" kimi qəbul edilib. O dövrdən başlayaraq müstəqil Azərbaycan dövləti və yenicə təşkilatlanmaqda olan dünya azərbaycanlıları erməni millətçilərinin, dünya erməniliyinin xalqımıza qarşı törətdikləri cinayətlərin, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, bu qətliamın soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərməyə başlayıblar. Bunun nəticəsidir ki, hər il bu dəhşətli faciənin ildönümü ölkəmizdə, dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla soydaşımız və dost, qardaş xalqların nümayəndələri tərəfindən ürəkağrısı ilə qeyd olunur.

Bəxtiyar Əsgərov onu da qeyd edib ki, fevralın 26-sı Azərbaycan xalqı üçün təkcə faciə günü deyil. Bu, eyni zamanda ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin, haqq-ədalətin bərpası və erməni işğalına son qoyulması uğrunda mübarizə tariximizin də şanlı səhifəsidir. Bu gün hər birimiz Azərbaycan Ordusunun gücü, qüdrəti ilə fəxr edir, qürur hissi keçiririk. Ali Baş Komandan cənab İlham Əliyevin hücum əmrini gözləyən qüdrətli Ordumuz, heç şübhəsiz ki, şəhidlərimizin qanını, qisasını alacaq, üçrəngli dövlət bayrağımızı Şuşada, Xankəndidə dalğalandıracaqdır.

Bəxtiyar Əsgərov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublikada həyata keçirilən fəaliyyət proqramları, bütün sahələrdə əldə olunan yüksək nəticələr, Vətənimiz uğrunda canından keçmiş, müqəddəs amal uğrunda şəhid olmuş soydaşlarımızın xatirəsinin daim uca tutulması, əbədiləşdirilməsi işlərini də əhatə edib, bu sahədə ürəkaçan nəticələrə nail olunub. Təsdiq edilmiş tədbirlər planına uyğun olaraq hər il olduğu kimi, bu il də Naxçıvan Muxtar Respublikasında Xocalı soyqırımı ilə bağlı silsilə anım tədbirləri keçirilir.

Tədbir digər çıxışlar və soyqırımı ilə bağlı bədii kompozisiya ilə davam etdirilib.

**Xəbərlər şöbəsi**

## Təbrizdə Xocalı soyqırımının 27-ci ildönümü münasibətilə tədbir keçirilib



***Fevralın 23-də Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğunda Xocalı soyqırımının 27-ci ildönümü münasibətilə anım tədbiri keçirilmişdir.***

Əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbirdə Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əliyənnağı Hüseynov çıxış edərək erməni təcavüzkarları tərəfindən 1992-ci il fevralın 26-da Xocalı şəhərində azərbaycanlılara qarşı törədilmiş soyqırımından danışmışdır. Ermənilərin işğalçılıq siyasətini diqqətə çatdıran Baş konsul demişdir ki, soyqırımına ilk dəfə ümummilli liderimiz Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verilmişdir. Bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən Xocalı soyqırımının tanıdılması istiqamətində ardıcıl tədbirlər görülür, Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası həyata keçirilir. Azərbaycan dövlətinin məqsədyönlü xarici siyasəti nəticəsində dünyanın bir sıra dövlətləri və beynəlxalq təşkilatlar Xocalı soyqırımını tanımışdır.

Çıxışdan sonra Xocalı soyqırımından bəhs edən film nümayiş etdirilmiş, mərasim iştirakçılarına Xocalı faciəsindən bəhs edən videomateriallar, kitab, jurnal və bukletlər paylanılmış, soyqırımı kadrlarından ibarət fotostendə baxış olmuş, ehsan süfrəsi açılmışdır.

Mərasimdə Şərqi Azərbaycan Valiliyinin İctimai və Mədəniyyət Məsələləri üzrə Baş İdarəsinin müdiri Əli Bədr Şokuhi, Şərqi Azərbaycan Vilayətinin və Təbriz Şəhər İcra Hakimiyyətinin rəsmiləri, İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Şimal-Qərb nümayəndəliyinin rəhbəri İsmayıl Rağeb Babayi, Türkiyənin Təbrizdəki Baş konsulu Hüseyn Güngör və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğu tərəfindən Təbriz şəhərində nəşr olunan "Mədəniyyət beşiyi" qəzetində "Xocalı soyqırımı bəşər tarixinin qanlı səhifəsidir" sərlövhəli məqalə dərc olunmuşdur.

**"Şərq qapısı"**

## Azərbaycanın Qarsdakı Baş Konsulluğu tərəfindən Xocalı soyqırımı ilə bağlı tədbirlər təşkil edilib

*Azərbaycanın Qarsdakı Baş Konsulluğunun və İqdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Həmrəyliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin birgə təşkilatçılığı ilə İqdır şəhərində Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş konfrans keçirilib.*



Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirildikdən sonra şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Azərbaycanın Qarsdakı Baş konsulu Nuru Quliyevin, İqdır vilayətinin valisi Ənvər Ünlünün, İqdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Həmrəyliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin sədri Ziya Zakir Acarın və digər ziyalıların çıxışları dinlənilib. Baş konsul Xocalı soyqırımının tanıdılması sahəsində həyata keçirilən tədbirlərdən danışıb.

Professor Aygün Əttar məruzəsində erməni millətçi dairələrinin formalaşdırdıqları saxta türk düşmənçiliyinin zaman-zaman xalqımıza qarşı ağır nəticələr verdiyini diqqətə çatdırıb. Professor 27 il əvvəl təcavüzkar Ermənistan dövləti tərəfindən Azərbaycan xalqına qarşı törədilən soyqırımının beynəlxalq hüquqa qarşı cinayət olduğunu qeyd edib. O, Xocalı soyqırımının törədilməsinin səbəb və məqsədləri, onun soyqırımı aktı kimi tanıdılması istiqamətində görülən işlər, qarşıda duran vəzifələr barədə məlumat verib.

Sonda Xocalı soyqırımının dəhşətlərini əks etdirən film nümayiş olunub.

Tədbirdə Türkiyə Böyük Millət Məclisinin sabiq millət vəkilləri Nurəddin Aras və Adil Aşırım, tanınmış ziyalılar, yerli ictimaiyyətin nümayəndələri, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak ediblər.

* * *

Aralıqda da Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar anma mərasimi keçirilib.

Dövlət himnləri səsləndirildikdən sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra Baş konsul Nuru Quliyev, icra başçısı Sercan Gökdəmir, 15 İyul Şəhid və Qazi Ailələri Dərnəyinin sədri Kanbər Güzəlkayanın çıxışları dinlənilib. Çıxışlarda 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni canilərinin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı aktı barədə ətraflı məlumat verilib, "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası çərçivəsində görülən işlərdən bəhs olunub.

Tədbirdə Xocalı soyqırımına və şəhidlərimizə həsr olunan şeirlər oxunub.

Türkiyə Böyük Millət Məclisinin sabiq millət vəkili Adil Aşırım, Aralıq Jandarma Qarnizonu komandanı polkovnik-leytenant Berk İştahlı, Aralıq Polis İdarəsinin rəisi Yusif Erkan, yerli ictimaiyyətin və kütləvi informasiya vasitələrinin nümayəndələri tədbirdə iştirak ediblər.

**"Şərq qapısı"**

## Xatirə Muzeyi ilə məktəblər arasında interaktiv əlaqə yaradılıb



*Fevralın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Xocalı soyqırımı ilə əlaqədar Tədbirlər Planına uyğun olaraq Təhsil Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikanın orta ümumtəhsil müəssisələri ilə Naxçıvan şəhərindəki Xatirə Muzeyi arasında interaktiv əlaqə yaradılıb.*

"Xocalı faciəsini unutmamalıyıq" mövzusunda keçilən dərsdə muzeyin bələdçisi Leyla Məmmədova əvvəlcə bu mədəniyyət müəssisəsi haqqında məlumat verib. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1997-ci ildə imzaladığı Sərəncamla yaradılan mədəniyyət müəssisəsində hazırda 2000-dən çox eksponat var. Onlardan 400-ə yaxını ekspozisiyada nümayiş etdirilir. Eksponatların hər biri tariximizin qanlı və şanlı səhifələrini özündə əks etdirir. Burada, əsasən, şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda Azərbaycan Respublikasının Milli qəhrəmanlarının, Sovet İttifaqı qəhrəmanlarının fotoşəkilləri və onlara aid materiallar qorunur. Muzeydə eksponatların xronoloji ardıcıllıqla yerləşdirilməsi gənc nəslin qəhrəmanlıq tariximiz haqqında ətraflı məlumat almasına şərait yaradır.

Interaktiv dərsdə Xocalıda törədilən soyqırımı barədə şagirdlərə ətraflı məlumat verilib, bu faciəyə ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verildiyi vurğulanıb, Azərbaycan Prezidentinin Xocalı həqiqətlərinin dünyaya çatdırılması istiqamətində həyata keçirdiyi tədbirlərdən bəhs olunub.



*Heydər Əliyev adına Hərbi Lisey*



*Sədərək kənd 1 nömrəli tam orta məktəb*

İnteraktiv dərsi Heydər Əliyev adına Hərbi Lisey və muxtar respublikanın 200-dən çox təhsil müəssisəsindən izləyiblər.

Qeyd edək ki, həmin gün muxtar respublikamızın ali, orta ixtisas və ümumtəhsil məktəblərində ilk dərs saatı Xocalı soyqırımına həsr olunub.

***Naxçıvan Muxtar Respublikası***
***Təhsil Nazirliyinin***
***mətbuat xidməti***

# Naxçıvan Muxtar Respublikası – 95



***Azərbaycanın geniş ərazilərində mövcud olan ilk yaşayış məskənlərindən biri kimi Naxçıvan çətin və şərəfli çoxəsrlik yol keçmişdir. Arxeoloji materiallar göstərir ki, təxminən, 5 min il bundan əvvəl salınmış Naxçıvan protoşəhərində indiki azərbaycanlıların qədim əcdadları yaşamışlar. “Kitabi-Dədə Qorqud” dastanlarındakı toponimlər və süjetlər Naxçıvanın oğuzların qədim məskənlərindən biri olduğuna şahidlik edir. Bütün tarixi-coğrafi və arxeoloji mənbələr, hətta əsatirlər, əfsanələr, toponimlər Naxçıvanın Azərbaycanın qədim tarixə malik ərazilərindən biri olduğunu göstərir. Qazma paleolit düşərgəsi, Kültəpə neolit abidəsi, Ovçular Eneolit dövrü istehkamları burada yaşayan protoazərbaycanlıların qədim tarixi köklərindən xəbər verir. Sonrakı tarixi inkişaf mərhələlərində də Naxçıvan heç vaxt özünü Azərbaycandan ayrı təsəvvür etməmişdir.***

XX əsrin əvvəllərində Naxçıvan əhalisi ermənilərin və onların havadarlarının ölkəmizin ərazi bütövlüyünə qarşı yönəldilmiş bütün cəhdlərinin qarşısını almış, bu qədim Azərbaycan torpağına kimsənin sahib çıxmalarına imkan verməmişdir. Fikrimizcə, təxminən, bir əsr əvvəl meydana çıxmış Naxçıvan ərazisinin muxtariyyət statusu ideyası da, hər şeydən əvvəl, bu regionda Azərbaycan xalqının milli mənafeyini və dövlətçilik maraqlarını qoruyub saxlamaq və daha da möhkəmləndirmək niyyətindən irəli gəlmişdir. XIX əsrdə ermənilərin İranın Səlmas-Xoy ərazilərindən Naxçıvana və Dağlıq Qarabağa köçürülüb yerləşdirilməsi, tədricən erməni nümayəndələrinin çar Rusiyasının hakimiyyət dairələrində özlərinə müəyyən yer tutması onların Qafqazda, xüsusən də Azərbaycan ərazisində özlərinə dövlət yaratmaq iştahalarını artırmışdır. XX əsrin əvvəllərində ermənilərin Bakı şəhərində və Azərbaycanın digər ərazilərində, o cümlədən Naxçıvanda törətdikləri qanlı cinayətlər onların çar hökumətinin məkrli siyasəti nəticəsində Ermənistan dövləti yaratmaq niyyətlərinin təzahürləri idi. Belə gərgin hərbi-siyasi şəraitdə Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusu uğrunda mübarizə aparmaqdan başqa çıxış yolu yox idi.

İkincisi, 1919-1920-ci illərdə çar Rusiyasının köməyi ilə ermənilər Zəngəzur qəzasını işğal etməklə Naxçıvanın ana Vətən Azərbaycanla əlaqələrinin kəsilməsinə nail ola bilmişlər. Naxçıvan regionda təklənmiş və çətin vəziyyətdə yaşayıb mövcudluğunu qorumaq məcburiyyətində qalmışdır. Həmin dövrdə özü də çətin şəraitdə olan Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvana lazımi səviyyədə hərbi-iqtisadi köməklik etmək imkanında olmamışdır. O zaman Naxçıvan Araz-Türk hökumətinin yaradılması da Naxçıvanın müdafiəsi zərurətindən doğmuşdur. Zəngəzur hadisələri Naxçıvanın muxtariyyəti ideyasını daha da gücləndirmişdir.

Üçüncüsü, 29 noyabr 1920-ci il tarixdə bolşeviklərin tarixi Azərbaycan torpaqlarında süni şəkildə olsa da, Ermənistan Respublikası yaratmağa nail olmaları və dərhal ərazi iddiaları ilə çıxış etməsi də qonşu ərazidə yerləşən Naxçıvanın Azərbaycanın tərkibində muxtar respublika kimi mövcudluğunu qoruya bilməsi və fəaliyyətini davam etdirməsi ideyasını qüvvətləndirmişdir. Eyni zamanda bolşevik Rusiyasının, xüsusən Stalin-Orconikidze-Mikoyan xəttinin təsiri ilə Azərbaycan sovet hökumətinin Naxçıvanı Ermənistana güzəştə getmək haqqında 1 dekabr 1920-ci il tarixdə qərar qəbul etməsi də bu ərazidə muxtar respublika yaradılmasının tezləşdirilməsinə təkan vermişdir.

Nəhayət, Azərbaycanın tərkibində olmaqla Naxçıvanda muxtar idarəetmə qurumunun yaradılması üçün yerli əhali arasında 1921-ci ilin yanvar ayında keçirilmiş referendum həlledici əhəmiyyət kəsb etmişdir. Naxçıvan əhalisinin doxsan faizi həmin referendumda böyük qətiyyətlə Ermənistan SSR-in tərkibinə daxil olmağa yox cavabı vermiş, Azərbaycanla birlikdə olmağı qəti şəkildə təsdiqləmişlər.

Bundan başqa, Azərbaycan SSR-in Ədliyyə komissarı və Azərbaycan SSR-in RSFSR-də Fövqəladə və səlahiyyətli səfiri Behbud ağa Şahtaxtinskinin Sovet Rusiyasının rəhbərləri Vladimir Leninlə yazışmaları, İosif Stalinlə və Georgi Çiçerinlə apardığı danışıqlar regionda Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikasının yaradılmasına ciddi təsir göstərmiş, ermənilərin iddialarının qarşısını almışdır. Onun Leninə və Çiçerinə ünvanladığı 13 avqust 1920-ci il tarixli məktubunda deyilirdi: “Bu diyarın (Naxçıvan ərazisi nəzərdə tutulur – İ.H.) daşnaklara verilməsi xalqların özünütəyin prinsipini və Sovet Azərbaycanının hüquqlarını açıq şəkildə pozur. ...Naxçıvan diyarının xalqı... ağlına gətirməzdi ki, Sovet Rusiyası əhalinin iradəsinə qarşı çıxacaq, diyarı daşnaklara verəcəkdir. Çünki onların hakimiyyəti altında nəinki sovet quruluşu məhv edilir, həmçinin daşnak Ermənistanının ərazisində yüzlərlə müsəlman kəndlilərinin başına gəldiyi kimi əhalinin fiziki mövcudluğuna açıq-aydın təhlükə yaranır”.

Naxçıvanın muxtariyyət statusu qazanmasında xüsusi əhəmiyyətə malik olan Moskva və Qars müqavilələrinin hazırlanmasında və imzalanmasında da Behbud ağa Şahtaxtinskinin böyük rolu olmuşdur. Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun və Behbud ağa Şahtaxtinskinin səyləri nəticəsində 16 mart 1921-ci il tarixdə Rusiya ilə Türkiyə arasında imzalanmış dostluq və qardaşlıq haqqındakı Moskva müqaviləsində Naxçıvanla əlaqədar aşağıdakı müddəalar özünə yer almışdır: “Razılığa gələn hər iki tərəf bu müqavilənin əlavəsində göstərilən sərhədlərin içərisində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar, o şərtlə ki, Azərbaycan bu protektoratlığı heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir”.

Moskva müqaviləsindən cəmi 6 ay 27 gün sonra, yəni 13 oktyabr 1921-ci il tarixdə Behbud ağa Şahtaxtinskinin iştirakı ilə Türkiyənin Qars şəhərində Rusiya, Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan tərəflərinin imzaladıqları müqavilənin üçüncü maddəsində həmin müddəa bir daha təsbit olunmuşdur. Yalnız bütün bu gərgin mübarizələrdən sonra, nəhayət, 9 fevral 1924-cü ildə Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradılmışdır.

Göründüyü kimi, Naxçıvan Muxtar Respublikasının yaradılması tarixi zərurətdən doğmuş və ilk növbədə, qədim Azərbaycan torpaqları olan Naxçıvan diyarı ərazilərinin başqa dövlətin əlinə keçməməsi üçün atılmış mühüm addımdır. Bu isə öz növbəsində, Naxçıvan Muxtar Respublikasının timsalında Azərbaycanın cənub-qərb sərhədlərinin toxunulmazlığının da təmin edilməsi deməkdir. Bundan başqa, Naxçıvan Muxtar Respublikası 16 mart 1921-ci il tarixli Moskva müqaviləsi və 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsi kimi beynəlxalq müqavilələr əsasında yaradılması bu muxtar qurumun siyasi-hüquqi statusuna tam təminat verir. Bütün hərbi-siyasi və coğrafi əhəmiyyəti ilə bir sırada Moskva və Qars müqavilələri Türkiyə Cümhuriyyətinin Naxçıvan Muxtar Respublikasının toxunulmazlığına dair cavabdehliyini təmin edən saziş kimi də əhəmiyyətlidir. Həm də Qars müqaviləsinin “müddətsiz” imzalanması bu beynəlxalq sazişin regionda sülh və təhlükəsizlik üçün təminat verən sənəd kimi faydalı olduğunu bir daha təsdiq edir.

Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikası, ilk növbədə, eksklav ərazi prinsipi ilə yaradılmışdır. Qeyd etmək lazımdır ki, Rusiyada və Avropa ölkələrində də eksklav və anklav ərazi prinsipləri əsasında yaradılmış muxtar qurumlar mövcuddur. Ümumiyyətlə, unitar dövlətlərin tərkibində muxtar qurumların olması təcrübəsi geniş yayılmışdır. Deməli, nə anklav-eksklav ərazi prinsipləri ilə muxtar qurumların yaradılması, nə də unitar dövlətlərin tərkibində muxtariyyət subyektlərinin təşkili beynəlxalq hüququn normaları ilə ziddiyyət təşkil etmir. Həmçinin Qars müqaviləsi beynəlxalq statusa malik olduğuna görə həmin çoxtərəfli müqavilə ayrılıqda tərəflərdən hər hansı birinin iddiası ilə, yaxud da kimlərinsə arzusu ilə ləğv oluna bilməz.

Bütün bunlar Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikasının yaradılmasının ölkəmiz və xalqımız üçün mühüm tarixi əhəmiyyətə malik hadisə olduğunu göstərir. XX əsr boyu Ermənistan və erməniпərəst qüvvələrin Naxçıvana qarşı ərazi iddiaları baş qaldırdıqda Naxçıvanın muxtar respublika statusu və onu təsdiq edən beynəlxalq müqavilələr regionda sülhün və təhlükəsizliyin təmin edilməsi baxımından fayda verməmişdir. Ermənistan-Rusiya hərbi birləşmələri tərəfindən 19 yanvar 1990-cı ildə Şərur rayonunun Kərki kəndi işğal edildikdə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin “Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında” məsələni müzakirə edərək, Qars müqaviləsinin şərtləri pozulduğu üçün Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxması haqqında qəbul etdiyi qərar Sovetlər İttifaqında və beynəlxalq aləmdə erməni təcavüzkarlarına və onların tərəfdarlarına verilmiş ən kəskin cavab kimi səslənmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Ozalın və Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə Ankarada rəsmi səfər çərçivəsində 24 mart 1992-ci il tarixdə Türkiyəyə səfəri zamanı bir daha beynəlxalq statusa malik olan və müddətsiz bağlanmış Qars müqaviləsini yenidən siyasi mühitin gündəliyinə gətirməklə beynəlxalq ictimaiyyətə və qarşı tərəfə zəruri mesajlarını çatdırmışdır.

Qeyd edilənlər göstərir ki, Naxçıvanın muxtariyyət statusu eksklav ərazi prinsipinə (ölkənin əsas ərazisindən ayrı düşmə prinsipinə – İ.H.) istinad edilməklə əldə edilsə də, həm də mühüm siyasi xarakter daşıyır. Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikasının yaradılması və fəaliyyəti Azərbaycanın Türkiyə, Rusiya və Gürcüstanla əlaqələrinin formalaşdırılması və inkişafında, ərazi bütövlüyünün qorunmasında, regionda sülh və təhlükəsizliyin təmin olunmasında mühüm əhəmiyyətə malikdir. Moskva və Qars müqavilələri ilə Naxçıvan Muxtar Respublikasının ərazilərinin müəyyən edilməsi burada ərazi mübahisələrinə son qoymuş, tərəflərə öz sərhədlərini konkretləşdirmək imkanı yaratmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin aşağıdakı fikirləri Naxçıvanın muxtariyyət statusunun əhəmiyyətini çox dolğun şəkildə ifadə edir: ***“Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının da qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq”.***

Bütün bunlara görə, hazırda Azərbaycanda dövlət müstəqilliyimizin inkişaf edib daha da möhkəmləndiyi bir şəraitdə müəyyən şəxslər tərəfindən beynəlxalq statusa malik olan Qars müqaviləsinin müddəalarını və Naxçıvan Muxtar Respublikasının yaradılmasını şübhə altına almaq, bu müqaviləyə və onun əsasında yaradılmış muxtar quruma keçici bir razılaşma qismində yanaşmaq siyasi cəhətdən də, elmi baxımdan da qətiyyən obyektiv reallığı əks etdirmir. Müstəqilliyimizin başlanğıc illərində AXCP-Müsavat cütlüyünün Naxçıvanın muxtariyyat statusunun ləğv edilməsi haqqındakı bəyanatları siyasi savadsızlıqdan başqa, həm də Naxçıvanda ulu öndər Heydər Əliyevin çətin şəraitdəki məqsədyönlü siyasəti sayəsində yaradılmış sabitliyə və inkişafa qarşı paxıllıq, qısqanclıq meyillərinin ifadəsi idi. Ermənistan tərəfinin vaxtaşırı Qars müqaviləsinin ləğv edilməsi haqqında səsləndirdiyi bəyanatların kökündə isə Naxçıvana qarşı əsassız ərazi iddiaları dayanır. İstənilən halda, xüsusən də Ermənistanla müharibə apardığımız indiki çətin şəraitdə özümüzdə Naxçıvanın muxtariyyət statusuna şübhə ilə yanaşmaq, onun əhəmiyyətini azaltmağa, beynəlxalq müqavilələrin müddəalarını başqa səmtə yönəltməyə cəhd göstərmək anlaşılmaz və qəbuledilməzdir.

Kütləvi informasiya vasitələrində Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi haqqında səsləndirilən fikirlər də gerçəklikdən uzaqdır. Çünki hər kəsə yaxşı məlum olduğu kimi, muxtar respublikada ali vəzifəli şəxsin səlahiyyətləri ayrı-ayrı şəxslərin arzusu ilə deyil, Konstitusiya ilə müəyyənləşdirilir. Məsələn, Acarıstan Muxtar Respublikasında bu hüquq Konstitusiya ilə hökumətin başçısına şamil edilmişdir. Ayrı-ayrı ölkələrdə fərqli təyinatlar, seçkilər nəzərdə tutulur. Statusu həmin vəzifəni daşıyan şəxs yox, ölkənin və ya muxtar respublikanın referendum yolu ilə qəbul edilmiş Konstitusiyası, yaxud da ona bərabər tutulan hüquqi sənədlər, məsələn, ölkə qurultaylarının qərarları və sair müəyyən edir. Naxçıvan Muxtar Respublikasında da ali vəzifəli şəxsin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olması Azərbaycan Respublikası Konstitusiyasının 136-cı maddəsi ilə müəyyənləşdirilmişdir. Ölkəmizin Əsas Qanununda, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin tərkibi, müəyyən etdiyi ümumi qaydalar və həll etdiyi məsələlər də 137, 138 və 139-cu maddələrdə ifadə olunmuşdur. Naxçıvan Muxtar Respublikası da öz fəaliyyətini bu təməllər üzərində qurmaqla yolunu uğurla davam etdirməkdədir.

Məlumat üçün deyək ki, Sovet hakimiyyəti illərində Naxçıvan Muxtar Respublikasına fərqli qurumlar rəhbərlik etmişlər. Belə ki, Naxçıvan Muxtar Respublikasının yaradılması haqqındakı tarixi qərar Naxçıvan Diyar Komitəsinin 27 fevral 1923-cü il tarixdə çağırılmış üçüncü qurultayında qəbul olunmuşdur. Naxçıvan Muxtar Respublikasının fəaliyyətə başladığı 1924-cü ildə isə muxtar respublikaya Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin sədri rəhbərlik etmişdir. Təxminən, XX əsrin otuzuncu illərindən etibarən Naxçıvan Muxtar Respublikasında ali rəhbərliyi Azərbaycan Kommunist Partiyası Naxçıvan Vilayət Komitəsinin birinci katibi daşımışdır. SSRİ-də 1990-cı ildə prezidentlik institutu tətbiq edildikdən sonra kommunist partiyası arxa plana keçdiyi üçün muxtar respublikada da hakimiyyət seçki yolu ilə formalaşan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Soveti tərəfindən idarə edilmişdir. Məlum olduğu kimi, on ikinci çağırış Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin 17 noyabr 1991-ci il tarixli iclasında görkəmli dövlət xadimi Heydər Əliyevin sədrliyi ilə keçən rəsmi yığıncaqda ulu öndərin təşəbbüsü ilə hələ Sovet hakimiyyətinin dağılmasından on bir ay qabaq muxtar respublikanın adındakı “Sovet Sosialist” sözləri çıxarılmış, “Ali Sovet” sözləri isə “Ali Məclis” sözləri ilə əvəz edilmişdir. Xalq deputatı Heydər Əliyevin təklifi əsasında Azərbaycanın üçrəngli bayrağının dövlət rəmzi kimi qəbul edilməsi haqqındakı tarixi qərar da ölkəmizin istiqlalına muxtar respublika statusunun yaratdığı imkanlar zəminində bəxş edilmiş mühüm nailiyyətdir.

Ona görə də Naxçıvan Muxtar Respublikasına hansı dövlət qurumunun rəhbərlik etməsi dövlət səviyyəsində həll edilən məsələdir. Burada hər hansı bir ölkənin tətbiq etdiyi modeli olduğu kimi təkrarlamaq və ya başqa format seçmək ölkənin daxili işidir. Belə məsələlər haqqında hər hansı bir şəxsin, xüsusən də siyasətçinin öz variantına dair qənaətlərində israrlı olması heç cür məntiqli deyildir.

Naxçıvan Muxtar Respublikasının hazırkı mərhələdəki sosial-iqtisadi və mədəni inkişaf səviyyəsi haqqında isə təkcə onu qeyd etməyi lazım bilirəm ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan, özünü enerji və ərzaqla təmin edən bu diyar 2017-ci və 2018-ci illərdə rəqabətədavamlı inkişaf göstəricilərinə görə iki dəfə ölkə üzrə birinci yeri qazanmışdır.

Türkdilli Ölkələrin Dövlət Başçıları Sammitinin 2009-cu ildə Naxçıvanda keçirilməsi, Naxçıvan şəhərində İslam Ölkələrinin Mədəniyyət Paytaxtı tədbirlərinin 2018-ci ildə yüksək beynəlxalq səviyyədə təşkil edilməsi muxtar respublikadakı hərtərəfli inkişafı əyani surətdə təsvir etməyə imkan yaradır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yaratdığı Əlahiddə Ümumqoşun Ordunun Naxçıvan Muxtar Respublikası ərazisində həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində böyük əraziləri işğaldan azad etməsi və mühüm strateji əhəmiyyətə malik mövqeləri ələ keçirməsi böyük iftixar hissi yaşamağa əsas verən tarixi hadisədir.

Naxçıvanın inkişaf etmiş universitetlər və Akademiya şəhərinə çevrilməsi, Naxçıvan teatrının davamlı sənət ənənələri diyarda ümumi mədəni səviyyənin və milli ziyalılığın inkişafını təmin edir.

Bütün bunlar, ilk növbədə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü rəhbərliyi ilə ölkə miqyasında qazanılmış böyük nailiyyətlərin mühüm göstəricilərindəndir. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yorulmaz fəaliyyəti, yüksək cavabdehlik hissi, müstəqil dövlətçilik ideallarına dərin sədaqəti də bu diyarın bütün istiqamətlər üzrə yenidən qurulmasına və yeni tarixi mərhələnin yaradılmasına uğurla xidmət edir. Bu gün müstəqil Azərbaycan dövləti, o cümlədən Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası və bütün regionlarımız, sözün həqiqi mənasında, özünün yeni intibah dövrünü yaşayır. Bu böyük nailiyyətləri və ölkəmizdəki möhkəm ictimai-siyasi sabitliyi qoruyub saxlamaq, daha da inkişaf etdirmək üçün möhtərəm Prezidentimiz İlham Əliyevin apardığı ardıcıl və müdrik siyasəti ürəkdən dəstəkləmək, həmin ali siyasətin həyata keçirilməsinə dərin vətəndaşlıq borcu ilə və məsuliyyətlə xidmət etmək hər bir azərbaycanlının borcudur.

**İsa HƏBİBBƏYLİ**
***Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik, Milli Məclisin deputatı***

# Heydər Əliyev adına Hərbi Lisey ölkəmizdə ixtisaslı hərbçi kadr hazırlığına öz töhfəsini verir



*Ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu ordu quruculuğu strategiyasında ixtisaslı hərbi kadrların hazırlanması xüsusi yer tutur. Hələ Sovetlər İttifaqı dövründə ulu öndərimizin rəhbərliyi ilə Cəmşid Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəbi yaradılmışdır. Dahi rəhbər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə ilk dəfə Naxçıvanda milli ordu hissələri yaradılmış, ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra isə milli ordu quruculuğu sahəsində daha geniş tədbirlər görülmüş, Azərbaycan Respublikasının Silahlı Qüvvələri formalaşmışdır. Ulu öndərin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialının yaradılması da bu sahədə görülən işlərin tərkib hissəsidir.*

1999-cu ilin oktyabrında filialın yeni tədris korpusunun açılışında iştirak edən ümummilli liderimiz bu hərbi təhsil müəssisəsinin yaradılması zərurətindən danışaraq demişdir: ***“Tarixən naxçıvanlı gənclər zabit peşəsinə yiyələnməyə meyilli olublar. Tarixi vərəqləyin, görün Naxçıvandan vaxtilə nə qədər böyük sərkərdələr çıxıbdır. Elə XIX-XX əsrlərin tarixini götürək. Naxçıvan xanları – Kəngərlilər sülaləsindən çar Rusiyasının ordusunda altı general var idi. Onlardan sonuncusu Cəmşid xan Naxçıvanski idi. Əgər sonrakı dövrü, sovet hakimiyyəti dövrünü götürsək, Naxçıvandan yüksək rütbəli, çox dəyərli zabitlər çıxıbdır. ... Ona görə də burada olan gəncləri hərbi peşəyə cəlb etmək üçün hərbi liseyin filialının yaradılması çox zəruri idi”.***



Ötən dövr ərzində böyük inkişaf yolu keçmiş hərbi lisey Naxçıvanda gənclərin hərb sənətinə marağının artmasına səbəb olmuşdur. ***“Heydər Əliyev adına Hərbi Liseydə oxumaq böyük şərəfdir və böyük məsuliyyətdir. Bu liseydə təhsil alan gənclər Azərbaycanın müstəqilliyinin keşiyində duracaqlar”***, – deyən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Heydər Əliyev adına Hərbi Liseyin fəaliyyətini daim diqqət mərkəzində saxlayır, tədrisin günün tələbləri səviyyəsində təşkili üçün qayğısını əsirgəmir. Bu gün liseydə kursantların təhsili, yaşayışı və asudə vaxtlarının səmərəli təşkili təmin edilmiş, gündəlik mətbuatı izləmək, şahmat və digər idman növləri ilə məşğul olmaq imkanı yaradılmışdır. Liseydə kursantların sağlamlığı, fiziki hazırlığı və qidalanması da diqqət mərkəzindədir. Müasir avadanlıqlarla təchiz olunmuş tibb məntəqəsi, idman zalı, futbol meydançası, açıq və qapalı idman qurğuları və digər obyektlər kursantların istifadəsinə verilmişdir.

Hazırda Heydər Əliyev adına Hərbi Liseydə 400-ə yaxın kursant təhsil alır ki, onların da 100-dən çoxu ölkəmizin digər bölgələrindəndir. Liseydə ən müasir avadanlıq və şəraitlə təmin olunmuş sinif otaqları, fizika, kimya, biologiya laboratoriyaları, iki linqafon kabinəsi, tarix, coğrafiya və hərbi kabinələr, 13 elektron lövhəli sinif, iki kompüter kabinəsi, müasir avadanlıqlarla təchiz olunmuş qapalı və açıq idman kompleksləri, süni örtüklü mini-futbol meydançası, zəngin kitabxana vardır. Hazırda elektron lövhələr və internetə çıxışı olan kompüterlər dərslərin interaktiv formada keçilməsinə və hərbi liseyin muzey şəbəkəsinə qoşulmasına imkan verir, dəqiq elmlər və xarici dillər müasir metodlarla tədris olunur. Kitabxana fondu latın qrafikalı yeni nəşrlərlə, o cümlədən elmi, bədii, siyasi və tarixi əsərlərlə təmin olunmuşdur.

Qərargah binasının birinci mərtəbəsində yerləşən Heydər Əliyev Muzeyində ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlərdən bəhs edən kitablar, dahi şəxsiyyətin hərbi liseyə səfərlərini əks etdirən fotoşəkillər nümayiş olunur. Eksponatlar sırasında ötən əsrin 90-cı illərində Naxçıvanda milli ordunun formalaşdırılması ilə bağlı qəbul olunan taleyüklü qərarların surətləri, həmin dövrə aid fotoşəkillər xüsusi maraq doğurur.



Hərbi liseydə tədris zamanı kursantların vətənpərvərlik tərbiyəsinə üstünlük verilir, tariximizə, dilimizə, mədəni irsimizə, dövlət atributlarına hörmət və ehtiram hisslərinin aşılanması diqqət mərkəzində saxlanılır. Bu gün Heydər Əliyev adına Hərbi Lisey öz ətrafında yüzlərlə vətənpərvər gənci birləşdirən mötəbər hərbi təhsil müəssisəsinə çevrilmişdir. Hərbi təhsil müəssisəsində tədrisin keyfiyyətini daha da artırmaq, kursantları mənəvi-psixoloji cəhətdən hazırlıqlı yetişdirmək üçün ardıcıl tədbirlər görülür. İlboyu keçirilən test-sınaq imtahanlarında, açıq və yoxlama dərslərində kursantların biliyi, fəallıqları yoxlanılır, nitq mədəniyyətinə yiyələnmələri, xarici dil mənimsəmələri daim nəzarətdə saxlanılır. Həmçinin kursantların asudə vaxtlarının səmərəli təşkili istiqamətində müvafiq tədbirlər görülür. Liseydə bilik yarışları, viktorinalar, tematik gecələr, kitab müzakirələri, şeir, inşa müsabiqələri keçirilir, muxtar respublikanın tarixi və görməli yerlərinə, muzeylərə ekskursiyalar, teatr tamaşalarına, kinofilmlərə baxışlar təşkil olunur, mütəmadi olaraq oxunması zəruri olan kitabların müzakirələri aparılır. Liseyin kursantları muxtar respublikada keçirilən bilik olimpiadalarının və idman yarışlarının, Əlahiddə Ümumqoşun Ordusu üzrə idman yarışlarının, bədii özfəaliyyət və baxış-müsabiqələrinin də fəal iştirakçılarıdır. Kursantlar ölkə və muxtar respublika üzrə keçirilən fənn olimpiadalarında fəal iştirak etmiş, onlardan 2-si qızıl, 1-i gümüş, 7-si bürünc medal qazanmışdır.

Bu gün Heydər Əliyev adına Hərbi Liseyi bitirənlər Müdafiə Nazirliyinin birləşmələrində, Hərbi Dəniz və Hərbi Hava Qüvvələrində, Milli Qvardiya və Dövlət Sərhəd Xidmətində, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində müxtəlif vəzifələrdə şərəf və ləyaqətlə qulluq edirlər. Fəaliyyəti dövründə liseyi 4 kursant qızıl, 4 kursant gümüş, 11 kursant isə fərqlənmə attestatı ilə bitirmişdir. Məzunlardan 64-ü xarici dövlətlərdə, o cümlədən Rusiya Federasiyasında, Türkiyə və İtaliya respublikalarında təhsillərini davam etdirirlər. Liseyin 5 nəfər əməkdaşı xüsusi xidmətlərinə görə dövlətimiz tərəfindən müxtəlif fəxri adlar və təltiflərlə mükafatlandırılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov hərbi lisey kursantlarına müraciətlə demişdir: ***“Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində məqsədyönlü tədbirlər görülür. Ordu, birləşmə və hissələrinin maddi-texniki təminatı gücləndirilir, silahlanmaya ən müasir döyüş texnikaları daxil edilir. Bu bir reallıqdır ki, ordunun gücü, onun döyüş qabiliyyəti yalnız güclü maddi-texniki baza və silah təminatı ilə deyil, həm də komandan-zabit heyətinin hərbi hazırlığı və vətənpərvərliyi ilə ölçülür. Vətənpərvər və peşəkar zabit heyəti olmadan nizami və mütəşəkkil ordu yaratmaq, döyüş tapşırıqlarını uğurla yerinə yetirmək mümkün deyil. Hər bir kursant hərbi təhsil sistemini mükəmməl mənimsəməli, bilik və təcrübəsini artırmalı, müasir silahları, hərbi texnikanı bacarıqla idarə etmək vərdişlərinə yiyələnməlidir. Vətənə xidmətin əsasında dövlətçiliyimizə və dəyərlərimizə sədaqət dayanır. Milli dəyərlərimizi, tariximizi və qəhrəmanlıq ənənələrimizi öyrənməli, hər an Vətənin müdafiəsinə hazır olmalı, Azərbaycan zabiti adının şərəf və məsuliyyətini öz xidmətinizlə doğrultmalısınız”.***



Hərbi liseyin kollektivi bundan sonra da qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirəcək, fiziki cəhətdən sağlam, savadlı və vətənpərvər gənclər yetişdirəcəkdir.

**Mehri QASIMOVA**
***Heydər Əliyev adına Hərbi Liseyin tarix müəllimi***

# Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1997-ci il fevral ayının 25-də imzaladığı Sərəncamla hər il fevralın 26-sı saat $17^{00}$-da Azərbaycan Respublikasının bütün ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilir.

Dünən Naxçıvan Muxtar Respublikasında da Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, nəqliyyatın hərəkəti dayandırılıb, avtomobillərdən səs siqnalları verilib.

Həmin vaxt xətdə olan sərnişin qatarlarının da hərəkəti dayandırılaraq səs siqnalları verilib.

# Türkiyəli alpinistlər Xocalı qurbanlarının xatirəsini Haçadağda anıblar



Türkiyə Cümhuriyyətinin ayrı-ayrı bölgələrində yaşayan, müxtəlif peşə sahiblərindən ibarət 13 nəfər alpinist Xocalı soyqırımını anmaq üçün Naxçıvan Muxtar Respublikasında olublar. Onlar Naxçıvanın məğrurluq simvolu sayılan Haçadağın zirvəsinə qalxaraq Xocalı soyqırımının qurbanlarını yad ediblər.

Qrupun rəhbəri, “İskəndər İqdır Ağrı Dağı Dağçılıq və Ekstremal idman növləri klubu”nun direktoru Umud Sönməz bu yürüşün Xocalı faciəsinin bütün dünyaya tanıdılması məqsədilə təşkil etdiklərini bildirib. O deyib ki, biz dost yox, qardaş ölkələrik. Sevinciniz sevincimiz, kədəriniz kədərimizdir. Bu faciə bizi həmişə sarsıtmışdır. Bu məqsədlə biz 1992-ci il 26 fevralda Xocalıda baş verən soyqırımı anmaq üçün Türkiyənin müxtəlif bölgələrində yaşayan və fəaliyyət göstərən 13 peşəkar alpinistlə Haçadağa çıxmağı qərarlaşdırdıq.

Umud Sönməz əlavə edib ki, bu bizim Haçadağa sayca 3-cü yürüşümüzdü. Haçadağın zirvəsinə çox çətinliklə qalxa bildik.

**Xəbərlər şöbəsi**

# *“Dolu”* filminin surdo-tərcümə vasitəsilə nümayişi təşkil olunub

Ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikada da Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilir, soyqırımı qurbanlarının xatirəsi yad edilir.



Bu məqsədlə keçirilən tədbirlər çərçivəsində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin kinozalında “Dolu” filminin muxtar respublikada ilk dəfə olaraq eşitmə və danışma qabiliyyəti məhdud şəxslər üçün surdo-tərcümə vasitəsilə nümayişi təşkil olunub.

Qeyd edək ki, surdo-tərcümənin təşkil edilməsində əsas məqsəd proqramın mətninin jest dili əsasında eşitmə və danışma qabiliyyəti məhdud tamaşaçılara çatdırılmasından ibarətdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Culfa rayonunun Gal kənd tam orta məktəbinə məxsus texniki pasport itdiyindən etibarsız sayılır.

***Bildiriş***

“MY Nakhcivan” Məhdud Məsuliyyətli Cəmiyyəti VÖEN (0200556671) fəaliyyətini dayandırdığından ləğv olunur.

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Gülcamal Tahirova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1495. Sifariş № 154